Seminarda Bakı şəhərinin 20, 28, 181, 276 nömrəli, Quba rayonu 1 nömrəli, Lənkəran rayonu 4, 8 nömrəli və Haftoni kənd məktəblərinin direktorları, Gəncə şəhər 4 nömrəli, Bakı şəhəri 46 və 16 nömrəli məktəblərin və "Avropa" liseyinin müəllimləri, "Resurs" gənclər təşkilatının sədri, bir sıra məktəblərin Valideyn–Müəllim Assosiasiyalarının prezidentləri, Azərbaycan Milli Valideyn-Müəllim Assosiasiyasının icraçı direktoru və Təhsil Nazirliyinin əməkdaşı iştirak ediblər.

Seminarın gedişində işçi qrupu yaradılıb və VMA-nın yeni strukturu, strategiya və konsepsiyasının layihələri hazırlanaraq müzakirəyə çıxarılıb.

Seminarin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.